

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 oktyabr 2021-ci il №85 (2593) https://mod.gov.az Qiyməti 30 qəpik


# Tarixləşən xatirələr tarix kimi yaşadılır



*Tarix də deyir, xalqımızın folkloru da deyir ki, gün var min aya dəyər. Başlanğıcı sentyabrın 27-si olan Zəfər günü belə günlərdən biri kimi tarixləşdi. 27 sentyabr da tarixi gündü, 8 noyabr da. Biri Vətən müharibəsinin başladığı gündü, biri Zəfər günüdü...*

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Mahiyyət etibarilə bu əmr Vətən müharibəsinin başlaması əmri idi. Vətən müharibəsi xalqın müharibəsi oldu, ruhun müharibəsi oldu, azərbaycançılığın müharibəsi oldu...

Azərbaycan Ordusu möhtəşəm Zəfər qazandı. Dünya müharibələr tarixində belə döyüşlər az-az olub (bəlkə də olmayıb!). Bu müharibədə qazanılan Zəfəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Hərbi Qənimətlər Parkı"nın açılışında belə dəyərləndirdi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq". Bu kəlamlar indi nəinki yeniyetmələrin, gənclərin, müharibə veteranlarının, 13-14 yaşlı uşaqların da düşüncələrindədi. Və tarixdədi!..

Şuşanın işğaldan azad edilməsi dünyanı düşmənin 30 il ərzində yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sisteminin, "Ohanyan səddi"nin yarılması səviyyəsində heyrətləndirdi.

Vətən müharibəsində dünya da gördü ki, beynəlxalq təşkilatların həll edə bilmədiyini Azərbaycan Ordusu özünün qüdrətiylə həll edir. Əmin oldu ki, bu ordu həm torpaqlarını işğaldan azad edəcək, həm də ermənilərin qorxulu terror şəbəkəsinin altını üstünə çevirəcək...

Zəfər işğala son nəfəs oldu...

Müharibənin tarixi dövlətin, dövlətin tarixi xalqın tarixidi. Tarix həm də təəssüratlarla, xatirələrlə yaşadılır. Vətən müharibəsinin başlamasından 1 il keçir. Tarix üçün 1 rəqəmi böyük olmasa da, kiçik rəqəm də deyil. 1 il 365 gündü, 365 gün 31536000 saniyə deməkdi; düşünürük ki, xatirələr də, yazılanlar da anları əhatələdiyinə görə hadisələrin davamlığı bəzən saniyələrlə ölçülür, onda müharibənin tarixi saniyələrlə hesablanmalıdır. Vətən müharibəsində də. Vətən müharibəsi başa çatandan sonra da xidməti vəzifəmizlə əlaqədar söhbətləşdiyimiz hərbi qulluqçular Vətən müharibəsinin anlarından danışırdılar, heç biri "Döyüşürəm" demirdi, "Döyüşürük" deyirdi. Əminliyimiz bizə deyirdi ki, Azərbaycan əsgəri qəhrəman olmaq üçün döyüşmür, qəhrəmanlıqla döyüşür...

Hərbi qulluqçuların Vətən müharibəsindən danışdıqlarını həmişə müharibə tarixi kimi dinləmişik. Zəfər işığında hər təəssüratın, hər xatirənin yaşadılması, tarixləşdirilməsi Zəfər gününə sevgidi, döyüşənlərə ehtiramdı, dövlətçiliyə sədaqətdi...

Səməd Vurğun yazmışdı ki, deyilən söz yadigardır. Deyilən söz Vətənlə, dövlətlə, dövlətçiliklə bağlıdırsa, həm də tarixdi; biz Vətən müharibəsinin tarixinin bəzi məqamlarını bu tarixi yazanlardan eşitdik.

Döyüşçülər tariximizdən danışıblar, tariximizdən yazırıq. Tarixləşən xatirələri tarix kimi yaşatmaq niyyətiylə yazırıq, həm də qürurla yazırıq...

Bütün cəbhə boyu döyüşlər gedirdi. Azərbaycan Ordusu döyüşə-döyüşə qələbələr qazanır, qələbələr qazana-qazana döyüşürdü. Bu döyüşlər işğaldan qurtuluş döyüşüydü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Bu kəlmələr noyabrın 8-də gerçəkləşdi. O tarixi gün üçün döyüşənlərin xatirələri bu gün dinlənilsə də, sabahlar (əslində, əbədiyyət) üçündü...

- Qızılqaya yüksəkliyini azad etmək əmri verildi. Bu döyüşdə qarşı tərəf mövqe üstünlüyünə malik idi. Qrup komandiri komandanlıqla məsləhətləşdikdən sonra yüksəkliyə düşmənin güman etmədiyi, edə bilməyəcəyi üsulla çatmaq qərarı aldı. Döyüş başladı. Düşmən ciddi müqavimət göstərirdi. Belə müqavimətlər həmişə müdafiə olunan mövqenin əhəmiyyətliyinə yozulur. Bu əhəmiyyətli mövqeni düşməndən almaq üçün daha intensiv atışırdıq. Beş nəfərimiz yaralandı, əmri altı nəfərlə davam etdirirdik. Axşama yaxın əl qumbarası məsafəsinə çatdıq. Açıq döyüş gedirdi. Komandirin göstərişi ilə döyüşü bütün vasitələrlə davam etdirirdik. Belə vasitələrdən ən səmərəlisi döyüşü əl qumbaraları ilə davam etdirmək idi. Ruslan Rəcəbov qarşı tərəfə əl qumbarası atdığı anda yaralandı. Onun yaxınlığında olan Samir Muradov qumbaranı döyüşçü yoldaşının əlindən almağa macal tapdı. Döyüşçülərimizin öz qumbaramızla yaralanmalarına imkan vermədi. Həmin qumbara dörd-beş düşməni parça-parça etdi. Mövqe qələbəsi qazandıq (**baş gizir Samir Muradov**).

- Kəşfiyyat müəyyənləşdirdi ki, Qızılqaya yüksəkliyində düşmən taborunun dayaq məntəqəsi var. Bu dayaq məntəqəsi döyüşlərin gedişində itki verməmək məqsədilə çevik hücumla məhv edilməli idi. Belə mühüm döyüş əmrini bir-biri ilə qarşılıqlı əlaqədə iki bölmənin yerinə yetirməsi planlaşdırıldı. Döyüşün bütün təfərrüatları, ehtimal edilən gözlənilməzliklər nəzərə alındı. Bilirdik ki, ciddi müqavimətlə üzləşəcəyik - düşmən yüksəklikdəydi, biz hücumla yüksəkliyə çatmalıydıq. Bir qədər getdikdən sonra bölmə komandirinin əmri ilə qarşı tərəfə əl qumbarası ata-ata irəliləyirdik. Qəsbkarlar qumbara qəlpələrindən qorunduğu müddətdə irəliləyir, atışa başlayanda yenidən qumbara atırdıq. Atılan qumbaraların hamısı eyni vaxtda partlamadığına görə bəzən bir qumbara atışından sonra heç 3-4 metr də irəliləyə bilmirdik. Düşmən bizim güllə məsafəsində olduğumuzu dərk edəndə çaşdı, atışa-atışa geri çəkilmək istədi. 30-40 dəqiqə çəkən döyüşdə 8 düşmən məhv edildi, qalanları, təxminən 50-60 nəfər qaça bildi. Komandir onları təqib etməyi lazım bilmədi (**miçman Türkay Nərimanov**).

- Batareyamız Daşaltıda idi. Düşmən dayaq məntəqələrindən birində döyüşçülərimizin qarşısında atış zolağı yaradıb. Bu zolaq aradan qaldırılmasa, döyüşçülərimiz ancaq itkilər verməklə irəliləyə bilərdi. Komandanlıq bu zolağın dağıdılmasını bizim batareyaya tapşırdı. Bu məqamlarda yaxın məsafədə düşmənin bir PDM-i göründü. İşğalçıların döyüş texnikası bir atəşlə məhv edildi. Bu atışın davamı komandanlıqdan verilən əmrin icrası oldu. İlk atış bir qədər hədəfin arxasına düşübmüş. Buna təcili düzəliş verdik və döyüşçülərimizin qarşısına atəş zolağı yaradanların başına "od ələdik". 10-dan çox mərmi düşmənin sığındığı ərazini darmadağın etdi. Bu məqamlarda sağ tərəfdə yağıların 2 PDM-i göründü. Sanılı saniyələrcə dayandı. Batareya komandirinin əmri ilə bu saniyələrdə atışa hazırlıq da getdi, atış da aparıldı. Düşmənin döyüş texnikaları alışdı (**baş leytenant Röyal Rəcəbov**).

(Ardı 5-ci səhifədə)

# Türkiyə Milli Müdafiə Universitetinin nümayəndələri xüsusi təyinatlı təhsil müəssisələrində olub



Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlara xüsusi təyinatlı təhsil müəssisələrinin tarixi və fəaliyyəti barədə brifinq təqdim edilib.

Türkiyəli nümayəndə heyəti təhsil müəssisələrinin ərazisi, tədris korpusları, maddi-texniki bazası və muzeyi ilə tanış olduqdan sonra tədris prosesini izləyib.



Professor E.Afyoncu təhsil müəssisələrindəki xatirə kitablarına öz ürək sözlərini yazıb.

Sonda qonaqlara komandanlıq adından hədiyyələr təqdim edilib.

## Hərbi Dəniz Qüvvələrində “Ən yaxşı gəmilər divizionu” adı uğrunda müsabiqə keçirilib

2021-ci ilin döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində "Ən yaxşı gəmilər divizionu" adı uğrunda müsabiqə keçirilib. Müsabiqənin əsas məqsədi bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsi, ixtisas və peşə fəaliyyətləri üzrə hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də ən yaxşı gəmilər divizionunun müəyyən olunmasıdır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, üç mərhələdən ibarət müsabiqədə ilk olaraq şəxsi heyətə, silah və texnikaya baxış keçirilib. Sonra hərbi hissədə qoşun xidmətinin təşkili və maddi-texniki vasitələrin saxlanma şəraiti yoxlanılıb.

Sonda atəş hazırlığı və digər taktiki normativləri icra edən bölmələrin döyüş hazırlığı qiymətləndirilib.

Yekun mərhələnin nəticələri təhlil edildikdən sonra qaliblər komandanlıq tərəfindən mükafatlandırılıb.

## “Ən yaxşı artilleriya divizionu” adı uğrunda yarış keçirilir

*2021-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yarışa cəlb olunan divizionların tədris-material bazası və şəxsi heyətin təchizatına baxıldıqdan sonra hərbi qulluqçuların hazırlıq səviyyəsi yoxlanılaraq fərdi və qrup şəklində normativlər qəbul edilir.

Daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən bölmələr təyin olunan marşrutlarla hərəkət edərək atəş mövqelərini tutur.

Yarışın tələblərinə uyğun olaraq müəyyən olunan vaxt çərçivəsində artilleriya qurğuları atəş vəziyyətinə gətirilir, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilir.

## Döyüş texnikaları və silahlara mövsümi qulluq göstərilir

*Hazırda şəxsi heyət hərbi hissə və birləşmələrdə silah və texnikalara mövsümi qulluğun göstərilməsi üçün zəruri işlər yekunlaşır. Zabit və əsgərlər komandanlığın qarşıya qoyduğu tapşırıqları bacarıqla və ən qısa zamanda yerinə yetirməyə çalışırlar.*



"N" hərbi hissəsində aparılan işlərin gedişini yaxından izləmək üçün polkovnik-leytenant Mürşüd Abbasovla birlikdə avtomobil parkına yollandıq. Zabit yol boyu söhbətində dedi ki, hərbi hissəmizin şəxsi heyəti Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərdi. Onlar əks-həmlə əməliyyatlarında həmişə öndə vuruşaraq işğalçıların mövqelərini dəqiq atəş zərbələri ilə məhv etdilər. Tankçılarımızın İkinci Qarabağ müharibəsində göstərdiyi igidlik fəxr edilməsi və qürur duyulasıdır.

Parkda şəxsi heyəti iş başında gördük. Onlar tanklara texniki xidmət göstərirdilər. Baş leytenant Məhəmməd Həsənzadə görülən işlər barədə məlumat verdi. Bildirdi ki, texnika və silahların mövsümi istismarına keçirilməsi üçün zəruri addımlar atılıb. “Görülən işlərə böyük məsuliyyət və diqqətlə yanaşırıq. Tankların yağ və yanacaq filtrləri mütəxəssislər tərəfindən yuyulub silinərək təmizlənir. Zərurət yarandıqda yeniləri ilə əvəzlənir. Döyüş maşınlarının hərəkət hissəsi, dayaq, saxlayıcı və istiqamətləndirici vərdanələri təmizlənib yağlanır. Silahlara və döyüş sursatlarına texniki xidmət göstərilir. Demək olar ki, işlərimiz yekunlaşmaq üzrədir. Yaxın günlərdə bütün zirehli texnikalar və silahlar qış mövsümünə hazır olacaq. Bu zirehli texnikalardan və silahlardan Vətən müharibəsində istifadə edilib. Tanklardan düşmən hədəflərinə atəş açılıb, sarsıdıcı zərbələr vurulub”.

Silah və texnikalar üzərində işləyən baş gizir Elnur Yusubov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Bəxtiyar Bayramovla da söhbət etdik. Söhbət zamanı onlar üzərlərinə düşən vəzifələrə məsuliyyət və diqqətlə yanaşdıqlarını dedilər. Doğrudan da, hərbçilərimizin gördüyü işlər elə ilk baxışdan könülləri oxşayırdı.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## Azad edilən ərazilərdə mühəndis işləri davam etdirilir

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilən ərazilərimizdə mühəndis işləri davam etdirilir.*



Ali Baş Komandanın göstərişinə əsasən, işğaldan azad edilən Kəlbəcər və Laçın rayonlarında dislokasiya olunan qoşunların fəaliyyətini təmin etmək, o cümlədən infrastrukturun bərpa edilməsi məqsədi ilə Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti həyata keçirilir.

Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsindən Laçın rayonunun Minkənd yaşayış məntəqəsinə, eləcə də dövlət sərhədi boyunca digər istiqamətlərdə ümumilikdə 580 km-dən çox torpaq örtüklü yollar inşa edilib. Qoşunların qış aylarında dağlıq ərazilərdə təhlükəsiz hərəkət etməsi üçün yolların işarələnməsi və qar çubuqlarının qurulması başa çatdırılıb.



Azad edilən ərazilərdə infrastrukturun bərpa olunması məqsədilə həyata keçirilən zəruri tədbirlər davam etdirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Heydər Əliyevdən miras azərbaycançılıq məfkurəsinin və ordu-xalq birliyinin təntənəsinə çevrilən tədbir keçirilib



Oktyabrın 26-dan başlanan qar Talış dağlarını ağ rəngə boyadı. Uzunömürlülər diyarı Lerik çən-dumana büründü. Soyuq küləklər əsirdi. Ancaq respublikamızın cənub bölgəsinin insanları yenə də məğrur, qürurlu idilər. Nə qar, nə çovğun, nə də soyuq küləklər onları qorxutmurdu. Hər kəs Azərbaycanın təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyü, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başladığı Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin sevincini yaşayırdı. Zəfər günü ərəfəsində rayonun mədəni-maarif müəssisələrində, təhsil ocaqlarında, idarə və təşkilatlarda silsilə tədbirlər keçirilir, şəhidlərin xatirəsi ehtiramla yad edilir, şəhid ailələri ziyarət olunur, müharibə iştirakçılarının və qazilərin sosial problemlərinin həlli istiqamətində məqsədyönlü fəaliyyətlər göstərilir, Vətən torpaqlarının keşiyində mərdliklə dayanan Azərbaycan əsgərinə mənəvi dəstək göstərilməsi ümumrayon aksiyasına çevrilməkdə idi.

Həmin gün igid əsgər və zabitlərimizin işğaldan azad etdikləri Füzuli rayonundan gələn xəbərləri bu ucqar dağ rayonunun sakinləri də diqqətlə izləyirdilər. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışında və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlqoyma mərasimində birgə iştirakı leriklilərin də böyük sevincinə səbəb oldu.

Oktyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Lerik rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən Vətən müharibəsinin lerikli şəhidlərinin xatirəsinə həsr olunan anım mərasiminin başlamasına az qalmış sanki bir möcüzə baş verdi. Çən-duman Talış dağlarından çəkildi. Günəş al-şəfəqlərini ətrafa səpələdi. Paytaxt Bakıdan, eləcə də bir çox bölgələrdən gələn qonaqlar, şəhid ailələrinin üzvləri, ictimaiyyət nümayəndələri dağlar qoynunda təntənəli açılışı olacaq Lerik şəhidləri memorial abidəsinin qarşısına toplaşdılar. Azərbaycan Respublikasının və qardaş Türkiyə Respublikasının Dövlət Bayraqları əzəmətlə dalğalanırdı.

Müdafiə Nazirliyinin, Lerik rayon İcra Hakimiyyətinin rəsmiləri, millət vəkilləri, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri hərbi orkestrin müşayiəti ilə əklillərlə abidəyə doğru irəlilədilər. Xeyriyyəçiliyi ilə ad çıxaran iş adamı, ehtiyatda olan polkovnik Aslan Hüseynovun təşəbbüsü və təşkilatçılığı ilə inşa edilən Lerik şəhidləri memorial abidəsinin üstündən bəyaz örtük götürüldü.

Qələbəyə gedən yollarda Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən öz şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan Lerik rayonundan pərvazlanan 47 şəhidin mərmər lövhələrdə əbədiləşən portretləri günəşin al-şəfəqləri altında daha da parlaq görünürdü.



Həmin anlarda nəinki şəhid valideynləri, müharibə iştirakçıları, hərbi qulluqçular, ümumiyyətlə, qalib Azərbaycanımızın hər bir vətəndaşı qürur hissi keçirirdi.

Memorial-abidə qarşısına Milli Məclisin, Müdafiə Nazirliyinin, Lerik rayon İcra Hakimiyyətinin və digər təşkilatların adından əklillər düzüldü.

Şəhidlərin xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan edildi, Hərbi Dəniz Qüvvələri orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu və beləliklə, Vətən müharibəsinin lerikli şəhidlərinin xatirəsinə həsr olunan anım mərasimi başladı...

Bütün bunlar Lerik rayonundan xidməti ezamiyyətdən yenicə qayıdan Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin ilk təəssüratlarıdır.

Lerik şəhidlərinin anım mərasimində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından tədbir iştirakçılarını salamlayan polkovnik Abdulla Qurbani Vətən müharibəsinin ilk günündən bütün xalqımız kimi leriklilərin də bir nəfər kimi ayağa qalxdığını, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında daha da sıx birləşdiklərini, döyüşən orduya mənəvi və maddi dəstək göstərdiklərini, hər kəsin qələbə əzmi ilə çalışdığını, həm arxa, həm də ön cəbhədə hərb tariximizə şanlı səhifələr yazdıqlarını böyük iftixar hissi ilə qeyd edib. Vətənə layiqli övladlar, ordumuza cəsur, mübariz əsgərlər yetişdirdiklərinə görə şəhid valideynlərinə bir daha Müdafiə Nazirliyi rəhbərliyinin minnətdarlığını çatdırıb. Hərbi əməliyyatlar zamanı döyüş meydanlarında yaralanan, sağlamlığını itirən döyüşçülərə şəfalar arzulayıb.

Hazırda xidmətdə olan, içdikləri Hərbi anda sadiq qalaraq Vətən qarşısında əsgəri borclarını şərəflə, vicdanla yerinə yetirən, düşmən təxribatlarının qarşısını mərdliklə, qətiyyətlə alan əsgər və zabitlərimizin öz həmyerlilərinə müraciəti alqışlarla qarşılanıb.

Nəzərə çatdırılıb ki, bütün qoşun növlərində, eyni zamanda, Vətən müharibəsinin bütün cəbhələrində Lerik rayonundan orduya çağırılan oğullar da əsl şücaət və igidlik nümunələri göstəriblər. Onlardan 47 nəfər son nəfəsinə, son gülləsinədək vuruşaraq müqəddəs məqama - Şəhidlik zirvəsinə ucalıb.



Müharibənin ilk günündə Füzuli rayonu istiqamətində komandiri olduğu tank taborunun şəxsi heyəti ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun Böyük Vətən müharibəsində faşizm üzərində göstərdiyi qəhrəmanlıq nümunəsini erməni faşizmi üzərində təkrarlayan mayor Amid Rəbbil oğlu Heydərov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Mayor Ramin Mərdan oğlu Ağayev, kapitan Cəlil Ağaddin oğlu Cavadov, kapitan Əbülfəz Hüseynverdi oğlu Rəhmətov, baş leytenant Əliqismət Mükafat oğlu Yaqublu, miçman Elvin Ramiz oğlu Səfərov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Cəlal oğlu Dadıyev, əsgər Çingiz Sulduz oğlu Babayev və başqaları Azərbaycan Respublikası Prezidentinin



müvafiq sərəncamlarına əsasən döyüş orden və medalları ilə təltif olunublar.

Lerik rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, millət vəkili İqbal Məmmədov, "Azərbaycan Bayrağı" ordenli polkovnik-leytenant Etibar Camalov, iki şəhid atası Elman Məmmədov, şəhid kapitan Cəlil Cavadovun dayısı Aslan Hüseynov və başqaları çıxış edərək Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin xalqımızın və dövlətimizin tarixinin şərəfli salnaməsi olduğunu yüksək qiymətləndiriblər. Bu qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, qəhrəman ordumuzun əsgər və zabitlərinin şücaətinin, dövlətimizin başçısının qətiyyətinin, sərkərdə məharətinin, hücum diplomatiyasının, dəmir yumruğunun qələbəsi olduğu diqqətə çatdırılıb. Lerikli gənclərin bu gün də ixtisas seçimində hərbi peşələrə böyük maraq göstərdiyi, hazırda yüzlərlə gəncin Silahlı Qüvvələrin sıralarında nümunəvi zabit kimi xidmət etdikləri vurğulanıb.

Vətən Müharibəsi Qəhrəmanı şəhid zabit Amid Heydərovun atası Rəbbil Heydərovun çıxışı tədbir iştirakçılarının böyük marağına səbəb olub. O deyib: "Zəfər günü ərəfəsində biz şəhid valideynləri nə qədər kədərlənsək də, bir o qədər qürur hissi keçiririk. Övladlarımızın intiqamı alınıb, qanı yerdə qalmayıb. Bir də ona görə fəxr edirik ki, bizim övladlarımızın xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilib. Xalqımız şəhidləri böyük izdihamla son mənzilə yola salıb. Dövlətimiz və xalqımız ağrılı, kədərli günlərimizdə bizə dayaq olub. Bu gün də Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyi diqqət və qayğılarını biz şəhid ailələrindən əsirgəmirlər. Şəhid oğullarımızın xatirəsi ehtiramla yad edilir, onların adları əbədiləşdirilir. Biz oğullarımızı Vətən üçün böyütmüşük, Vətən üçün tərbiyə etmişik. Onlar Vətənin uğrunda şəhidlikləri ilə xalqımızın, millətimizin, o cümlədən biz valideynlərin başını bütün dünyada uca ediblər. Biz hər birimiz azərbaycanlıyıq, qarabağlıyıq. Məhz bu böyük Zəfərə, Qələbəyə də birliyimizlə, həmrəyliyimizlə, gücümüzlə nail olmuşuq. Azərbaycan yenilməzdir! Azərbaycanın müstəqilliyi əbədi və sarsılmazdır! Qarabağ Azərbaycandır!"

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə ölümündən sonra təltif olunan hərbi qulluqçuların layiq görüldükləri orden və medallar onların ailələrinə təqdim edilib.

Müdafiə Nazirliyinin nəşri olan "Vətən müharibəsi şəhidləri" kitabı (müəllif Abdulla Qurbanidir) şəhid ailələrinə, rayon kitabxanaları və Tarix-diyarşünaslıq muzeyinə hədiyyə edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Əməkdar artist Cahangir Qurbanov, Nigar Rəhimova, Ağabala Abdullayev, Günay Qasımova və Mətləb Ağayevin ifa etdikləri zəfər nəğmələri, hərbi marşlar və şəhidlərin xatirəsinə həsr olunan vətənpərvərlik mahnıları böyük marağa səbəb olub.

Vətən Müharibəsi Qəhrəmanı Amid Heydərovun büstü ucaldılan park, həmçinin 2020-ci il oktyabrın 27-də Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan kapitan Cəlil Cavadovun məzarı ziyarət edilib.

Lerik rayonunda keçirilən anım mərasimi şəhidlərimizin xatirəsinə sonsuz ehtiram olmaqla yanaşı, həm də ulu öndər Heydər Əliyevdən miras azərbaycançılıq məfkurəsinin və ordu-xalq birliyinin təntənəsinə çevrilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirildi



*Vətən müharibəsində şəhid olanların xatirəsinə həsr olunan anım mərasimləri keçirildi. Mərasimlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə şəhidlər kapitan Həsənov Əsəd Fərhad oğlunun və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlyasov Fərid İbad oğlunun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Mərasimdə şəhidlərin doğmaları, döyüş yoldaşları, Milli Qəhrəman İlqar Mirzəyevin ailəsi, qazilər və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Hər iki şəhidimizin əziz xatirəsinə həsr olunan videoçarx tədbir iştirakçılarına nümayiş etdirildi.

Tədbirdə çıxış edən polkovnik-leytenant İlkin Qayıbov öncə şəhidlərimizə rəhmət, onların ailəsinə səbir dilədi və qazilərimizə can sağlığı arzuladı. O bildirdi ki, şəhidlər Azərbaycan xalqının başının tacı, gələcək nəslin vətənpərvərlik nümunəsidir.



Şəhid ataları Fərhad Həsənov və İbad İlyasov övladlarının keçdiyi şərəfli həyat yolundan danışaraq qeyd etdilər ki, şəhid valideyni olmaq məğrur olmaqdır, qürurlu olmaqdır. Şəhidləri tanımaq və tanıtmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Keçirilən anım mərasimləri şəhidlərimizin ruhuna ehtiramın bariz nümunəsidir. Sonda şəhid ataları şəhidlərin xatirəsinə təşkil olunan tədbirlərə görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını və tədbirin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini bildirdilər.

Digər çıxış edənlər də Əsəd və Fəridin timsalında bütün şəhidlərimizə rəhmət oxudu, yaralılarımıza şəfa dilədilər. Yazılan şanlı tarixdən, canı və qanı bahasına Vətənin bütövlüyünü təmin edən qəhrəman oğullarımızın göstərdiyi rəşadətdən danışan natiqlər qazanılan Qələbənin tarix boyu xatırlanacağını qeyd etdilər. Bildirildi ki, 30 ilə yaxın işğalda qalan tarixi ərazilərimiz Əsəd Həsənovun və Fərid İlyasovun timsalında igid oğullarımızın misilsiz şücaəti nəticəsində azad edildi. Müzəffər Ali Baş Komandanın sərkərdəliyindən, xalqımızın birliyindən də danışan qonaqlar vurğuladılar ki, ölkəmizdə şəhid adlarının əbədiləşdirilməsi üçün kompleks tədbirlər görülür - memorial abidələr salınır, xatirə lövhələri qurulur, şəhid bulaqları istifadəyə verilir.

Çıxışlar başa çatandan sonra, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda musiqilər təqdim edildi.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" tədbirlər silsiləsi çərçivəsində Vətən müharibəsi şəhidləri Ülvi Rəfiyev və Saday Məmmədəliyevin xatirəsinə həsr edilən anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları, yaxınları iştirak etdilər.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov çıxış edərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində ərazi bütövlüyümüzün təmin olunduğunu bildirdi. Bu tarixi zəfər sevincini xalqımıza bəxş edən qazilərimizə Allahdan şəfa, şəhidlərimizə rəhmət, ailə üzvlərinə səbir dilədi. Müdafiə Nazirliyi adından şəhidlərin ailə üzvlərinə və yaxınlarına başsağlığı verərək şəhid ailələrinin hər zaman diqqətdə saxlanıldığını qeyd etdi. Mərkəz rəisi Böyük Qələbəmizlə başa çatan müqəddəs haqq savaşında Ülvi və Saday kimi minlərlə mərd, igid, cəsarətli oğullarımızın Azərbaycan Ordusunun güc və qüdrətini bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Bildirdi ki, onların xatirəsini yaşatmaq, tanıtmaq, gələcək nəsillərə ötürmək hamımızın vətəndaşlıq borcudur, bu yolda şücaət göstərən, canından keçən igidlərimizi böyüdən və tərbiyə edən valideynlərinin qarşısında baş əyirik.

Anım mərasimində çıxış edənlər Ülvi Rəfiyevin və Saday Məmmədəliyevin həyatından, şərəfli döyüş yolundan danışdılar. Sonra şəhidlərə həsr olunan videoçarx nümayiş edildi.

Ülvinin anası Səyyarə Rəfiyeva və Sadayın atası Rza Məmmədəliyev çıxış edərək ölkəmizdə şəhidlərin ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. Torpaqlarımızın azadlığı uğrunda canından keçənlərin əziz xatirəsinə həsr olunan və onların qəhrəmanlığını təbliğ edən belə mötəbər silsilə tədbirlərin ərsəyə gəlməsində zəhməti keçən hər kəsə təşəkkürlərini çatdırdılar.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnı və marşlar səsləndirilib.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarımızı tanımaq və tanıtmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən növbəti anım mərasimi keçirildi.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Abşeron rayon Qobu qəsəbəsinin Vətən müharibəsində şəhid olan dörd igidin - Yusif Nəcəfovun, Gülverdi Qasımovun, Əli Heydərovun, Əli Əliyevin xatirəsinə həsr olunan anım mərasimində Müdafiə Nazirliyinin hərbi qulluqçuları, müharibə veteranları, şəhidlərin ailə üzvləri, yaxın qohumları, döyüşçü yoldaşları, qazilər və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Anım mərasimi açıq elan edildikdən sonra tədbir iştirakçılarına Qobu qəsəbəsindən olan Vətən müharibəsi şəhidlərinin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olundu.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov çıxışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi fədakarlıq, igidlik nümunələrindən, rəşadətli Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatlarından danışdı.

Mərasimdə çıxış edənlər Qobu qəsəbəsindən olan Birinci Qarabağ müharibəsində və Vətən müharibəsində döyüşlərdə igidlik və qəhrəmanlıq göstərən oğulların gənclərə örnək olaraq, ömür və şərəfli döyüş yollarından söhbət açdılar.

Qeyd edildi ki, Vətən müharibəsində göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid Yusif Nəcəfov "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Əli Əliyev "Vətən uğrunda", Gülverdi Qasımov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüblər.

Anım tədbirində şəhidlərin ailə üzvləri çıxış edərək onlara göstərilən diqqət və qayğıya, övladlarının adının və xatirəsinin daim uca tutulduğuna görə Ali Baş Komandana və Müdafiə Nazirliyinə minnətdarlıqlarını bildirdilər.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən, şəhidlərimizin xatirəsinə həsr olunan mahnılar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Tarixləşən xatirələr tarix kimi yaşadılır

(Əvvəli 1-ci səhifədə)

- Batareya Şuşa yaxınlığında idi. Şuşanın dağları görünürdü. Yaydan bu yana dumanı çəkilən dağların döşündə, yamacında qara buluda bənzəyən dumanlıq sürünürdü. Güllələrin, mərmilərin yaratdığı qara dumanabənzərliyin içindən Şuşaya sarı baxırdılar. Şuşaya sarı gedən tankı gördülər. Baş leytenant Röyal Rəcəbovun əmri ilə tanka bir mərmi atıldı. Mərmi tankın üstünə düşdü. Tank alışdı. Bunun davamı kimi düşmənin o istiqamətdən keçməkdə olan sursat daşıyan maşını da bir mərmi ilə məhv edildi...

Ermənilərin diqqətini çəkmədən Cəbrayıldan dağ yoluyla Qubadlının Balasultanlı kəndinə tərəf irəliləyirdik. Kəndə çatanda bizə Həkəri çayının kənarı boyunca irəliləmək əmri verildi. Harada döyüşə başlanılacağı deyilməmişdi. Güləbirdə gedən yola çatanda kəşfiyyatçılar məlumat verdilər ki, qarşıda düşmənin qruplaşması var. Bu gözlənilməz qarşılaşma əmrin icra edilməsini ləngidə bilərdi. Təcili qərar qəbul edilməliydi. Bölmə komandirinin əmri ilə döyüşməyi qərara aldılar. Əmri bölmələrlə yerinə yetirdilər. Atəşin qəfilliyi, düşmənin müxtəlif istiqamətlərdən atışa məruz qalması döyüşün gedişinə ciddi təsir göstərdi. Körpünün partladılması əmrin icrasını bir qədər ləngidə bilərdi. Ona görə döyüşü səhərə kimi davam etdirdik. Müqaviməti qırılan düşmən qruplaşması tamamilə məhv edildi (**miçman Məhəmməd Ağalarzadə**).

- Cəbrayıl rayonunun Əmirvarlı kəndinin yaxınlığında yüksəklikdə düşmənin üçüncü eşelonu olduğu gümanı kəşfiyyat məlumatları ilə təsdiqləndi. Düşməni bu yüksəklikdən sıxışdırmaq, yüksəkliyi işğaldan azad etmək tapşırıldı. Hücum qəfil başladı. Bir qədərdən sonra atış seyrəldi. Düşmən elə güman etdi ki, geri çəkilirik, döyüşdən yayınırıq. Bizi təqib etmək niyyəti ilə açıq döyüşə başladı. Atəş məhz bu məqam üçün seyrəldilmişdi. Həm atışaraq, həm də əl qumbaralarından istifadə edərək düşmənin irəliləməsinin qarşısını aldıq, mövqe üstünlüyünü təmin etdik. Düşmən artilleriya dəstəyindən bəhrələnmək istəsə də məğlub oldu (**miçman Emil Ahəngari**).

- Cəbrayılın Soltanlı kəndi uğrunda döyüşdə kəndin yaxınlığındakı yüksəkliyi düşməndən aldıqdan sonra orada qalibiyyət bayrağı dalğalandırdıq. Bu qüruru böyük könül xoşluğuyla yaşayırdıq ki, düşmənin bir qırıcı təyyarəsi o qədər də yüksək olmayan hündürlükdən bizim səmti bombaladı. Alçaq hündürlükdən atılan bombalardan daldalana bildik. Qırıcılar ikinci dəfə görünəndə biri vuruldu. Bu, bizim sonrakı hücumun inkişafına şərait yaratdı. Göyərçin Veysəlli də daxil olmaqla, 7 kəndi işğaldan azad etdik. Düşmən digər silah-sursatları ilə birlikdə "Qrad" qurğularını da qoyub qaçdı (**miçman Rahil Məmmədov**).

Müharibə döyüşlərdən uzaqlarda da qələbə ovqatı ilə yaşanılırdı. Müharibədə yaralanan hərbi qulluqçuları həyata qaytarmaq üçün ölümlə çarpışanlara da döyüşçü deyərdim. Onlar



döyüşçünün son nəfəsinə çökməkdə olan görünməyən ölümün "şah damarını skalpellə kəsirdi". Bu da Vətən müharibəsi tarixi idi:

"...Güllə əsgərin sağ əlini deşib ürəyinə dəymişdi. Bu əl düşməni döyüş-döyüş sıxışdıranlardan birinin əli idi, bu əl düşməni səngərindən, döyüşdüyü mövqedən döyüş üzünə çıxaranların, sonra geri çəkilməyə məcbur edənlərin sırasında döyüşən igid əsgərlərdən birinin əli idi. Bu əli deşən, deşib ürəyə çatan güllə çıxarılmalıydı. Əsgərin üzündə bizə tanış bir təəssüf donmuşdu. Bu təəssüf əlinin tətiyə çatmamasının təəssüfü idi. Gözaltı Eldar həkimə baxdım. Kifayət qədər təcrübəyə malik olan həkim qətiyyətlə, "Döyüşə başla!", - dedi. Kəlmələr ürək-dirək kimi səsləndi. Əsgəri ölümdən xilas etdik. Həmin gün xəfif bir meh əsirdi. Könül xoşluğuna dönən meh əsimini apardığımız əməliyyata görə təbiətin təbəssümü bildik..." (onda Anar Əmrahın baxışlarında gördüyümüz sevinc qələbə rəngindəydi; cərrahların ölüm üzərində qələbəsi Zəfərin zərrələridi. Bu zərrələr döyüşçü ömrü deməkdi). "Ürəyindən əməliyyat olunduğundan xəbərsiz olan əsgər özünə gələndə ilk olaraq əlinə baxdı. "Barmaqlarım tətik sıxa biləcəkmi?", - soruşdu..." (**ürək-damar cərrahı Anar Əmrah**).

- Qubadlının Xanlıq kəndi yaxınlığında körpünün partladılması əməliyyat şəraitini gərginləşdirdi. Düşmən yüksəklikdə idi. Onları intensiv atışla susdura bilsək də, sol tərəfdən iriçaplı silahların atəşi altına düşəndə komandi şəxsi heyətə "İrəli" komandası verdi. Əmr sürətlə yerinə yetirildi. Üç düşmən məhv edildi, biri əsir götürüldü, sağ qalanlar qaçdı. Döyüşdə düşmənin bir TƏİR qurğusu qənimət qaldı (**Miçman Vüsal Kamilzadə**)...

Polkovnik-leytenant Anar Mirzəyev döyüş tapşırığını yerinə yetirərkən yaralanıb, ancaq döyüşün ona həvalə edilən mərhələsini sona qədər idarə edib. Sonrakı döyüşlərdə də mərdliklə döyüşüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb - bunu da qazilər deyir.

"Şuşa işğaldan azad ediləndə əsgər qolundan da, ayağından da güllə yarası alıb. Üçüncü güllə cibindəki telefona dəyib" - bunu da qazilər deyir. Belə hadisələr haqqında biz də eşidirik. Bilmirik, onlar gerçəklikdimi, təxəyyüldümü, Vətən müharibəsində bu hadisə olub.

Gizir Əhməd İsmayılov dedi ki, baş leytenant Elvin Şükürlü şəraitə görə düşmənin mövqeyinə tək gedib. "Səngərin girəcəyində rastlaşdığı düşmənə atəş açmamaq üçün onun üstünə atılıb, və boğaraq öldürüb. Hənirti səsinə gələnlərdən daha üçünü öldürüb. Ermənilər məqam tapıb onu güllələyiblər. Zabitimiz şəhid olub. Onun qəhrəmanlığını döyüşçülər səhərisi gün əmr veriləndə daha coşqunluqla tamamladılar".

- Aşağı Maralyan kəndindən düşmənin sığındığı "val"ı keçdik, Yuxarı Maralyan istiqamətində döyüşü davam etdirdik. "Dörd yol" adlanan ərazi arxada qaldı. Düşmən bizi müşahidə edibmiş, atəş altına düşəndə manevr edərək sol cinaha doğru irəlilədik. Relyef baxımından dərə misallı ərazini, az sulu çayı keçib düşmənin sol cinahında döyüşə başladıq. Belə gözlənilməzlikdən müqaviməti sarsılan düşmən bir saata qədər çəkən döyüşdə ağır tələfat verərək geri çəkildi.

Bir gün sonra bizə düşmənin yüksəklikdə yerləşən dayaq məntəqəsini almaq əmri verildi. Döyüşə başladıq. Ağır döyüş gedirdi. Düşmən bu məntəqəni ciddiliklə müdafiə edirdi ki, sonrakı döyüşlərdə üstünlüyü təmin edə bilsin. Belə relyeflərdə döyüşlər təkcə güclə qazanılmır, həm də çevik manevrlərlə aparılır. Komandir döyüşün gedişinə təsir edə biləsi manevretmə əmri verdi. Manevri döyüş apara-apara yerinə yetirdik. Az sonra düşmənin dayaq məntəqəsindəydik (**kapitan-leytenant Orxan Qədirov**).

- Cəbrayıl rayonunun Aşağı Maralyan kəndinə hücum edəndə düşmənin ciddi mühəndis-istehkam səddi ilə üzləşdik. Komandir taktiki dəyişiklik etməklə hücumu bir qədər başqa səmtdən başlamağı tapşırdı. Komandirin əmri ilə müdafiə səddini iki istiqamətdən qəfil həmlə ilə yarmalı idik. Düşmənə qəfil yaxınlaşmalıydıq. Saat 10 radələrində düşmənin 300 metrliyindəydik. Atəş əmri verildi. Uzun çəkməyən döyüşdən sonra əmri yerinə yetirdik. İki döyüşçümüz yaralandı (**miçman Elçin Qasımlı**)...

- Cəbrayıl rayonunda uçurulmamış məktəb binasında yerləşən düşmən qruplaşmasının məhv edilməsi əməliyyatında ciddi müqavimətlə üzləşdik. Məktəbə yaxınlaşmaq, düşmənlə yaxın məsafədən döyüşmək çətinləşdi. Komandir bir qədər geri çəkilməyi, bölünərək müxtəlif istiqamətlərdən hücum etməyi, imkan yaranarsa, düşmənin arxasına sızmağı tapşırdı. Bir neçə istiqamətdən düşmənə hücum etdik. Atışı bölünən düşmən məğlub oldu (**kiçik miçman Rauf Mirzəyev**).

Oktyabrın 10-da Göyərçin Veysəlli kəndi istiqamətində 7 kəndin işğaldan azad edilməsi üçün hücum əmri verildi. Düşmən ciddi müqavimət göstərəndə komandir bir qədər sola meyilli arxaya çəkilmək əmri verdi. Bir qədər arxaya çəkilib döyüşdük. Hiss edirdik ki, düşmən getdikcə əlavə güc toplayır. Onda atəş dəstəyinə ehtiyac duyulurdu. Rabitə ilə koordinatlar artilleriyaçılara bildirildi. Qəlpələr düşmənin atəşini zəiflədəndə hücumu davam etdirdik. Düşmənin müqaviməti qırıldı, onun səddi yarıldı. Düşmən təxminən 10-15 kilometr geriyə çəkildi (**gizir Pünhan Xəlilov**).

Əsgər Muxtar Əkbərovun bir xatırlaması hələ də düşüncələrimizdədi; döyüşçünün ağrılarla xatırladıqları da, döyüş gerçəklikləri də müharibə tarixidi: "Oktyabrın 6-dək Füzuli istiqamətində döyüşdük. Sonra bizi Xocavənd istiqamətinə göndərdilər. Axşam saat 6 radələrində qarşıda hərəkət müşahidə etdik. Döyüşçü yoldaşımla bərabər nə baş verdiyini müəyyənləşdirməyə getdik. Düşmən idi. Mühasirəyə düşdük. Yaxın məsafədən atışma başladı. Döyüşçü dostum şəhid oldu. Qolumdan, ayaqlarımdan, qarnımdan yaralandım. Yaralardan betər əsir düşmək qorxusu yaşayırdım. Qan itirirdim, gözlərim qaralırdı, az qala huşumu da itirəcəkdim. Ermənilərdən birini vurdum, sonra birini. Bizimkilər gəldilər...". Bu xatırlama döyüşdə yaralanan qazinin xatirə biçimində təəssüfüdür, sona qədər döyüşə bilməyin təəssüfü. Bu təəssüfü yaşayanların hamısı döyüşlərdən uzaqda qalsalar da, ruhən müharibə başa çatana kimi döyüşənlərin sırasında olublar...

**Əsgər Rəhim Əhmədov demişdi:**

- Xocavəndin yaxınlığındaydıq. Komandir döyüş əmri verdi. Döyüşdən sonra nəfəs dərdiyimiz daşlıq ərazidən çıxdıq. On-on beş addım irəliləməmişdik ki, düşmənin gülləri qənşərimizə sancıldı. Qarşı tərəfi görə bilməsək də, atışmağa başladıq. Belə vəziyyətdə atışmaq vəziyyətimizi zərrə qədər də olsa yaxşılaşdıra bilməyəcəkdi. Buna görə də komandir eyni anda qarşı tərəfə atılmağı əmr etdi. Atışı ayaq üstə aparmağa başladıq. Az sonra qarşıdan atışların hiss olunacaq dərəcədə seyrəldiyini hiss etdik. Hərdən sürünə-sürünə, hərdən dizi üstə, hərdən dikəlib atışırdıq. Düşmənin mövqeyinə xeyli yaxınlaşdıq. Komandirin əmri ilə düşmənin səngərinə atıldıq. Döyüşdən əvvəl güman edirdik ki, orada 25-30 düşmən var. Bəlkə də vardı. İndi yoxuydular. Cəmi 5-6 düşmən vardı, onları da səngərə düşüncə məhv etdik. Bu döyüş mövqe qələbəsi qazanmağımızda əhəmiyyətli oldu...

Vətən müharibəsində neçə-neçə belə döyüş vəziyyəti yaranıb. Neçə döyüşçümüz son anda özünü də, ətrafındakı düşmənləri də qumbara ilə partladıb. Belə şəhidlik düşmənin döyüşçülərinin gözlərini qorxudub və bu sonralar düşmənin döyüşlərdən qaçmasına, döyüş öncəsi fərariliyinə də səbəb olub...

2017-ci il iyulun 4-də Ermənistan silahlı birləşmələri Füzulinin Alxanlı kəndini 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutanda 14 aylıq körpə Zəhra həlak olmuşdu. Bu faciə hamının ruhunu sızlatdı. Dörd il sonra döyüşdə düşməndən məhz Zəhraya görə də qisas alındı:

- Füzulinin Babi kəndi yaxınlığında döyüş gedirdi. Batareyamıza o istiqamətdə düşmən mövqelərini atəşə tutmaq əmri verildi. Məsafənin uzaqlığı əmrin yerinə yetirilməsini bir qədər çətinləşdirsə də əmr yerinə yetirilməliydi. Koordinatlar təyin edildi. Atəş açıldı. Atəşin dəqiqliyini bildirdilər. Sonrakı atışlar düşmən mövqeyinin "altını üstünə çevirdi". 24 atış düşmənin başına ələnən 24 dağıntı topasına döndü...

Füzulinin Alxanlı kəndi uğrunda gedən döyüşlərdə ilk atəşi Zəhranın qisasına görə atdıq (**leytenant Nemət Ocaqverdiyev**)...

Vətən müharibəsi xalqın müharibəsiydi, azərbaycançılığın müharibəsiydi...

Vətən müharibəsi Ali Baş Komandanın sərkərdəliyi ilə Zəfərlə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Ordusu tarixi qələbə qazandı. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq. Azərbaycan güclü dövlət kimi heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın.

Vətən müharibəsi həm işğalı sonlandırdı, həm də Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi. Vətən müharibəsi buna görə bunca dəyərləndirildi, Zəfər buna görə bunca böyük Zəfərdi! Bu böyüklüyün işığında tarixləşən xatirələr də tarix kimi yaşadılır...

**Kapitan
Məhəmməd NƏSİRLİ,
Rəşid HÜSEYNOV
"Azərbaycan Ordusu"**

**fotolar
Natiq İSAYEVİNDİR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan-Türkiyə qardaşlığı. Bir millət, iki dövlət

**Suallar:**

**1. Azərbaycan-Türkiyə arasında dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır.**

**2. Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı.**

### Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Bu əlaqələri şərtləndirən amillər sırasında ortaq kökümüzün, dilimizin, dil birliyimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olmasıdır. Əsrlər boyu bu dövlətlər həmişə bir-birinə dəstək olub, sıx əməkdaşlıq edib, ümummilli lider Heydər Əliyevin müdrikcəsinə dediyi kimi "bir millət, iki dövlət" olublar. Təsadüfi deyildir ki, Türkiyə dövlətinin müdrik şəxsiyyəti Mustafa Kamal Atatürk "Azərbaycanın kədərini kədəri, sevincini sevinci" hesab edirdi. Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir nəsihət qoyublar: "Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır".

Azərbaycan Xalq Cümhuriyyətinin 28 may 1918-ci ildə müstəqilliyini elan etməsi ilə başlayan Türkiyə-Azərbaycan siyasi əlaqələri Azərbaycan dövlətinin müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dövlətinin ilk dövlət olaraq Azərbaycanın müstəqilliyini tanıması ilə bərpa olundu. İki dövlət arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulub, 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi açılıb, 1993-cü ilin yanvarında İstanbul, 2004-cü ilin aprelində isə Qars şəhərlərində Baş konsulluqları təsis edilib. Eyni zamanda, Türkiyənin Bakı şəhərində səfirliyi, Naxçıvan və Gəncə şəhərlərində Baş konsulluqları fəaliyyət göstərməkdədir. Azərbaycan Respublikası hələ Sovet İttifaqının tərkibində olarkən belə iki respublika arasında rəsmi münasibətlər mövcud olub. Belə ki, 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin və 1969-cu ildə Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunayın Bakıya səfərləri bu əlaqələrin xarakterinin müəyyənləşdirilməsində böyük rol oynayıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə, 1992-ci ildə blokada şəraitində yaşayan qədim diyarın qardaş ölkə ilə 11 kilometrlik hissəsində, Araz çayı üzərində "Ümid" körpüsü adlandırılan keçid məntəqəsini istifadəyə verməklə iqtisadi, mədəni əlaqələrin yaradılmasını təmin edibdi. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoyan Azərbaycan Respublikasının səylərini dəstəkləyərək hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərib. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin edib.

"Bir millət, iki dövlət" məşhur deyimini söyləyən ümummilli lider Heydər Əliyevin yaratdığı qardaşlıq əlaqələri bu gün də Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Məhz belə misilsiz fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycan ilə Türkiyə Avrasiya kontingentinin Cənubi Qafqaz və Qara dəniz kimi strateji əhəmiyyətli regionlarının geoiqtisadi mənzərəsinin müsbətə doğru dəyişdirilməsinə nail olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyinin güclənməsinə də mühüm dəstək veriblər. Belə ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi və Avropa ilə Asiya arasında Zəngəzur dəhlizi vasitəsilə əsas tranzit xəttini yaratmaqla, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüslə inşası davam etdirilən, artıq XXI əsrin layihəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması da Türkiyə-Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti məhsuludur.

Son 30 il ərzində Azərbaycan və Türkiyə dövlətləri arasında əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlib, 15 sentyabr 2010-cu ildə İstanbulda, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması və 15 iyun 2021-ci ildə Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini veribdi. Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycanın dövlət başçısı Qars müqaviləsini yada salaraq qeyd edib. "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Yüz ildən sonra azad edilən Şuşa şəhərində müttəfiqlik haqqında imzalanan bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz dəhlizinin Türkiyə, Azərbaycan dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz BMT başda olmaqla bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir.

### Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı

Müstəqilliyimizin ilk günündən etibarən Azərbaycan Respublikasının Qarabağ başda olmaqla işğal və ərazi bütövlüyü probleminin yaşadığını, regional təhlükəsizlik ehtiyacını diqqətə alan qardaş Türkiyə dövləti Bakının hərbi baxımdan güclənməsinə çalışıb, bunu Türkiyənin də regionda güclənməsi olaraq görüb və mümkün dəstəyi əsirgəməyib. İki qardaş ölkənin ordularının əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sabitlik və təhlükəsizliyin təmini, ortaq güc formalaşdırmaq yoluyla milli problemlərin həll edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edib.

İki qardaş ölkə ordularının əməkdaşlığı yönümündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilənin bağlanmasıyla başlayıb. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində yüzlərlə azərbaycanlı zabit təhsil alaraq Azərbaycan Ordusunun güclənməsinə öz töhfəsini verib.

Azərbaycan Ordusunun zabit heyətinin ehtiyacını qarşılayan ən önəmli təhsil müəssisələrindən olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi qardaş ölkənin aktiv iştirakı və köməyi ilə NATO standartlarında təhsil verən təhsil ocağı səviyyəsinə gətirilib çatdırılıb. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə və digər ölkələrə göndərilir. Eyni zamanda, indiyə qədər Azərbaycan-Türkiyə Müdafiə nazirlikləri arasında təmənnasız hərbi yardım, Müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında müqavilələr imzalanıb. Hərbi sənayesi ilə qüvvətlənən qardaş ölkənin müxtəlif silah sistemlərinin Azərbaycanla birlikdə istehsalı da qardaşlıq ittifaqının müdafiə sənayesində də müştərək layihələr həyata keçirərək ordularının gücünə güc qatacağının bariz nümunəsidir.

Qərblə Şərqin qovuşduğu nəqliyyat dəhlizləri, neft-qaz boru xətləri, yollar baxımından olduqca strateji bir coğrafiyada yerləşən Azərbaycan, Avroatlantik məkanın təhlükəsizliyinin təmini baxımından da önəmli olduğu üçün Azərbaycan hərbçiləri NATO-nun "Sülh Üçün Əməkdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarına daxil edilib və bu fəaliyyətlər də Türkiyə dövləti vasitəsi ilə həyata keçirilib. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

2010-cu il sentyabrın 15-də İstanbul şəhərində imzalanan müqavilə ilə Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması əlaqələrin inkişafında yeni mərhələnin də əsasını qoyub. 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanan tarixi Şuşa Bəyannaməsini iki qardaş ölkənin ittifaq müqaviləsi kimi də qəbul etmək olar. Müqavilənin müddəalarının birinə görə, ölkələrdən hər hansı birinin müstəqilliyinə, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid, yaxud təcavüz edildiyi təqdirdə Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilən fəaliyyəti təşkil ediləcəkdir.

İki qardaş ölkənin ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı zirehli texnika, artilleriya qurğuları, hərbi aviasiya, hava hücumundan müdafiə qüvvələrinin də cəlb etməklə həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərindən birini təşkil etməkdədir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla erməni işğalında olan torpaqlarımızı azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan 44 günlük Vətən müharibəsində döyüşmək bacarığını, supermüasir Ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssisləri, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı hərbçilərini nümayiş etdirdi. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "bu yeni nəsil müharibə üslubudur, hansı ki, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

2020-ci il ərzində Azərbaycan və Türkiyə orduları arasında 20-yə yaxın müxtəlif təyinatlı birgə təlimlər həyata keçirilib. Qarabağ Zəfəri sonrasında həyata keçirilən 2021-ci ilin təlimləri Türkiyə və Azərbaycanda davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəminin olduğunu, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün böyük əhəmiyyətə və faydası olduğunu bildirmişdir. Cənab Ali Baş Komandan demişdir: "Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlim keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür".

Prezident İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərdən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı, Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində "... Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdırlarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdirlərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq..." deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunəsidir.

Bir sözlə, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı daim möhkəmlənir, əlaqələri dayanmadan inkişaf edir və hər iki ölkə regionda təhlükəsizliyin qarantına çevrilir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm də mənəvi əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## “Qəbul edəcəyimiz qərarları, atacağımız birgə addımları hər kəs qəbul etməlidir”

*Ermənistanla münasibətlərə dair atdığımız addımları Azərbaycanla məsləhətləşməklə müəyyən edirik. Füzuli səfəri çərçivəsində də bu istiqamətdə müzakirələr apardıq. Ermənistan tərəfindən də önəmli mesajlar gəlib.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu "CNN Türk" telekanalının hazırladığı xüsusi proqramdakı çıxışında ifadə edib.

Ermənistanın atdığı addımlara Azərbaycan və Türkiyənin məsləhətləşərək qarşılıq verdiyini diqqətə çatdıran nazir vurğulayıb ki, artıq müharibə bitib. Sülh sazişi imzalanmalıdır.

Mövcud vəziyyət barədə ətraflı məlumat verən Mövlud Çavuşoğlu deyib: "Qəbul edəcəyimiz qərarları, atacağımız birgə addımları hər kəs qəbul etməlidir. Ermənistan da artıq bunları qəbul edir".

### *Ordenli igidlərimiz*

## Zəfərimiz - əbədiyyətə ucalacaq tarixi səhifəmizdir

44 günlük Vətən müharibəsində qazanılan qələbə xalqımıza bəxş olunan əbədi ərməğandır. Bu Qələbə əsrlər, qərinələr boyu unudulmayacaq, yaddaşlardan silinməyəcək. Ali Baş Komandanın sərkərdəliyi, döyüşçülərimizin igidliyi, mərdliyi bütün dünyaya göstərdi ki, Azərbaycan xalqı işğalla barışmaq fikrində olmayıb. Nəticədə Vətən üçün canından keçməyə hazır olan oğullar döyüş meydanında qorxmazlıq nümayiş etdirərək torpaqlarımızı işğaldan azad etdilər.



Belə oğullardan biri də zabit Rəşad Vəliyevdir. O, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Hələ uşaq yaşlarından zabit olmaq arzusunda olan Rəşad kursantlıq illərində dərslərini həvəslə oxuyur, ixtisasının incəliklərinə dərindən yiyələnir. 2009-cu ildə Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirərək leytenant rütbəsi alır, uşaqlıq arzusuna çatır. O gündən artıq 12 il keçib və indi Rəşad Vəliyev baş zabitdir.

"Bu tarixi Zəfərin bir parçası olduğum üçün qürur duyuram", - deyən müsahibim söhbətinə müharibədə qazanılan qələbə ilə başladı. - 44 günlük haqq savaşımız əbədi yaşayacaq, tarixlərə həkk olunacaq. Bu Zəfər qətiyyətin, məğrurluğun, igidliyin zəfəridir. Qələbə müharibəsiz, müharibə isə itkisiz olmur. Neçə-neçə qəlbi Vətən eşqiylə alovlanan oğullarımız şəhadətə ucaldı. Vətən torpağını candan əziz tutan oğullarımız qazi oldular. Qələbəni yaşadanları unutmamaq insanlıq və vətəndaşlıq borcumuzdur. Vətən uğrunda canından, sağlamlığından keçmək fədakarlıq tələb edir. Mən bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyir, ailələri qarşısında baş əyirəm. Onlar bizlərə böyük torpaq əmanət etdilər. Biz də çalışmalıyıq ki, əmanəti göz bəbəyimiz kimi qoruyaq. Bunun üçün də əlimizdən gələni əsirgəməyəcək, tarixi torpaqlarımızı dirçəldəcəyik. Ali Baş Komandanın dediyi "Şuşa, biz səni dirçəldəcəyik" şüarı hər bir azad olunan ərazimizə şamildir."

Vətən müharibəsinin iştirakçısı mayor Rəşad Vəliyev Tovuz royununda doğulub boya-başa çatıb. Hələ uşaq yaşlarından silah səsləri eşidib, müharibənin nə olduğunu az da olsa anlayıb. Cəbrayıl, Füzuli, Zəngilan və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edən zabit döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edib. Düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərib.

Əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

### *İctimai-siyasi hazırlıq*

## “Hərbi xidmət bizi hərtərəfli formalaşdıran məktəbdir”

Artilleriya bölmələrindən birində şəxsi heyətin ictimai-siyasi hazırlıq dərsinin təşkili ilə tanış oldum. Dərs yüksək tərtibatla hazırlanmış sinif otağında təşkil olunmuşdu. Burada rəşadətli Azərbaycan Ordusunun inkişaf tarixi, ulu öndər Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, erməni təcavüzünü, Hərbi andı və Dövlət Himnini əks etdirən maraqlı guşələr göz oxşayırdı. Belə guşələrin əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılmasında, vətənpərvərlik hissinin və döyüş ruhunun aşılanmasında mühüm rol oynadığı danılmazdır.

Zabit Kamran Sadıqov dərsin mövzusunu əsgərlərin diqqətinə çatdırdı. Sonra geniş mühazirə ilə çıxış etdi. Əvvəlcədən hazırladığı plan-konspektdən istifadə edərək ətraflı məlumatlar verdi. Dərsin sonunda sual-cavab edərək şəxsi heyətin mövzunu hansı səviyyədə mənimsədiyini öyrəndi. Eyni zamanda əsgərlərin verdiyi sualları da səlis və ətraflı cavablandıraraq müsbət pedaqoji təcrübə nümayiş etdirdi. Həm komandir, həm də pedaqoq kimi bacarıqlı olduğu hiss olunurdu. Ona görə deyirlər ki, komandir hərtərəfli olmalıdır. Dərsin sonunda onu daha yaxından tanıyıram. Kapitan Kamran Sadıqov Heydər Əliyev adına



Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Dəfələrlə yuxarı komandanlıq tərəfindən nümunəvi xidmətinə görə "Fəxri fərman" və "təşəkkür"lə mükafatlandırılıb. Böyük Qələbəmizlə başa çatan İkinci Qarabağ müharibəsinin də iştirakçısı olub. Talış və Suqovuşan kəndlərinin azadlığı uğrunda döyüşlərə qatılıb. Xidmətində olduğu kimi, müharibə zamanı da qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən məharətlə gəlib. Kamran Vətən müharibəsi başa çatdıqdan sonra Ali Baş Komandan tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Həmsöhbətim ictimai-siyasi hazırlıq dərslərinin mahiyyətindən danışdı. "Günün nizam qaydasına uyğun olaraq təyin olunmuş günlərdə və saatda səmərəli təşkil olunan dərslərin gənclərin yüksək döyüş hazırlıqlı, möhkəm nizam-intizamlı olması və komandirlərinə inam kimi müsbət keyfiyyətlərə malik əsgərlər olaraq tərbiyələnməsində önəmi böyükdür. Ona görə də bu dərslərin səmərəli təşkili yuxarı komandanlıq tərəfindən daim ciddi nəzarətdə saxlanılır. Qrup rəhbərləri dərsin təşkilinə yüksək səviyyədə hazırlaşırlar. Mövzu haqqında müxtəlif mənbələrdən istifadə edərək məlumatlar toplayır, videoçarxlar hazırlayırlar. Bir sözlə, əsgərlərin mövzunu yaxşı qavraması üçün bütün əlverişli metod və vasitələrdən istifadə edirik", - zabit dedi.

Kamran, həmçinin qeyd etdi ki, ordumuzun yaranmasından və inkişafından, tariximizdən, hərbi nizamnamələrdən, vətənpərvərlikdən, qəhrəmanlıq nümunələrindən, erməni təcavüzündən və digər mövzulardan bəhs edən dərslərdə gənclər mənəvi dəyərlərə sədaqətli, Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edən, qorxmaz və cəsur əsgərlər kimi formalaşır, dünyagörüşlərini və biliklərini daha da artırırlar.

Komandirlərini böyük maraqla dinləyərək dəftərlərinə qeydlər aparan əsgərlər Elcan Ağayev, Məhərrəm Ağayev, Əzəmət Ağabəyov, Nazim Rzayev və başqaları ilə söhbətləşdim və onlara mövzu ilə bağlı bir neçə sual da ünvanladım. Hər biri sualları düzgün və dolğun şəkildə cavablandırdı. Hazırcavab olmalarından dərsi yaxşı mənimsədikləri və mövzuya maraq göstərdikləri hiss olunurdu. Düşüncələrini bölüşən əsgərlər qeyd etdilər ki, hərbi xidmət bizi hərtərəfli formalaşdıran mühüm bir məktəbdir. "Hər kəs bu məktəbi uğurla keçməli, şərəfli vəzifələrini inamla yerinə yetirməlidir. Burada biz həm silahlardan istifadə etməyi və döyüş hazırlığını öyrənir, həm də keçirilən ictimai-siyasi hazırlıq dərslərində biliklərimizi və dünyagörüşümüzü artırırıq. Bir sözlə, hərbi xidmət bizə bir çox müsbət keyfiyyətlər aşılayır", - deyə həmsöhbətlərim bildirdi.

Bir daha şahidi oldum ki, ordumuzun bütün bölmələrində savadlı və peşəkar zabit heyəti əsgərlərin xidməti fəaliyyətini günün nizam qaydalarının tələblərinə uyğun olaraq səmərəli təşkil edir və hərbi xidmət keçməyə gələn gənclərin bacarıqlı əsgərlər və cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşması işini yüksək səviyyədə təşkil edirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyənin Bayraktar TB2 pilotsuz uçuş aparatları dünyanın 13 ölkəsinə ixrac ediləcək



Türkiyənin müdafiə sənayesində milli texnologiyalar öncüsü olan Bayraktar TB2 pilotsuz uçuş aparatları artıq dünyanın 13 ölkəsinə ixrac ediləcək.

Bununla bağlı məlumat "Baykar" şirkətinin rəsmi tvitter hesabında bildirilib.

Paylaşımda şirkətin daha bir ölkə ilə anlaşma imzaladığı haqqında məlumat verilir. Hərbi texnikanın ixrac edildiyi ölkələrin adlarının açıqlanmadığı tvitdə, yeni anlaşma ilə bu dövlətlərin sayının 13-ə çatdığı bildirilir.

### İŞİD qruplaşması İraq ordusunun hərbi bazasına hücum edib



İŞİD silahlılarının Bağdadın şimalında yerləşən hərbi bazaya hücumu nəticəsində iki hərbçi həlak olub.

Hücuma İraq ordusunun Ər-Raşidiyyə rayonundakı 11-ci diviziyası məruz qalıb. Hücumun dəf edilməsinə hərbi təyyarələr cəlb olunub.

Bu ərəfədə qruplaşma Əl-Mikdadiyyə şəhəri yaxınlığında yerləşən Əl-Havaşa kəndinə hücum edərək 14 dinc sakini qətlə yetirib, 15 nəfəri yaralayıb, üç nəfəri isə girov götürüb.

Qeyd edək ki, İŞİD silahlıları 2014-cü ilin yay aylarında İraq ərazisinin təxminən üçdə birini ələ keçirməyə nail olmuşdu. İyun ayında ölkənin ikinci böyük şəhəri Mosula daxil olan qruplaşma onu "qurduqları xilafətin" paytaxtı elan etmişdi. 2015-ci ildə İraqın hökumət qüvvələri beynəlxalq koalisiyanın dəstəyi ilə İŞİD-ə qarşı genişmiqyaslı əməliyyatlara başlayıb, 2017-ci ilin dekabrında isə sabiq Baş naziri Heydər əl-Abadi qruplaşmanın tam məğlubiyyətə uğradığını bildirib.

### Pakistanda polis əməkdaşlarına silahlı hücum nəticəsində dörd nəfər həlak olub



Pakistanın Xayber-Paxtunxva əyalətində polis əməkdaşlarına silahlı hücum dörd nəfərin həyatına son qoyub. Bundan başqa, yaralıların olduğu bildirilir.

Pakistan mətbuatı xəbər verir ki, əyalətin Lakki Marvat rayonunda terrorçular ərazidə növbə çəkən polis avtomobilinə hücumu nəticəsində baş verib. Terrorçuların zərərsizləşdirilməsi istiqamətində əməliyyat aparılır.

Qruplaşma üzvləri bundan əvvəl əyalətin Bannu və Lakki Marvat rayonlarında iki polis əməkdaşını qətlə yetiriblər.

### Almaniyanın gələcək hökuməti hərbçilərin sayının artırılmasını istəmir



Almaniyanın gələcək hökumətinin formalaşdırılması üzrə müzakirələrdə iştirak edən partiyalar Bundesverin şəxsi heyətinin artırılması planından imtina etmək niyyətindədir.

Bu barədə danışıqlar prosesinin iştirakçıları bildiriblər.

Müdafiə nazirinin səlahiyyətlərini icra edən Anneqret Kramp-Karrenbauerin təsdiqlədiyi plana əsasən, qarşıdakı 10 il ərzində alman hərbçilərinin sayı 183 mindən 203 minə çatdırılmalı idi. Gələcək hökumət çox güman ki, bu plandan əl çəkəcək.

Bundestaqın müdafiə məsələləri üzrə səlahiyyətli nümayəndəsi Yeva Höql bildirib ki, hərbi qulluqçuların sayının azaldılması dövlətin və NATO-nun maraqlarını müdafiə edən, həmçinin beynəlxalq əməliyyatlarda iştirak etməli olan Bundesveri zəiflədəcək.

Qeyd edək ki, Almaniya Sosial Demokrat Partiyası, liberallar və "yaşıllar" gələcək koalisiyanı qurmağa daha yaxın olan siyasi güclər sayılır. Oktyabrın 27-dən başlayan danışıqlar 22 işçi qrupunda davam etdirilir. Almaniyanın yeni kansleri artıq bu il məlum ola bilər.

**AZƏRTAC-ın materialları əsasında**

# Torpaqlarımız azadlığa qovuşdu

Keçən ilin sentyabr ayı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Şanlı Zəfərə aparan yolun başlanğıcı da, sonu da uğurlu oldu. Təqvimimizə düşən qara hadisələrin yerini al-qırmızı zəfər tarixləri əvəzlədi. Dədə-baba torpaqlarımızın işğaldan azad edilməsi ən əlamətdar hadisələrdən biri oldu. O günlərdə sevincimizin nə həddi, nə də qədəri vardı. İşğal altında olan torpaqlarımız azad edildikcə sanki gücümüzə güc qatıb, ümidsizlik adlı hissi dəf edib inama köklənirdik. Kimliyindən asılı olmayaraq hər bir azərbaycanlının dilində yalnız bir şüar vardı: Vətən, Vətən, yenə Vətən!

Azərbaycanın əzəli və qədim torpaqları işğaldan azad olunacağı günü gözləyirdi. Ermənistan dövləti Qarabağ bölgəsini öz adına çıxarmağa çalışsa da bu cəhdlər baş tutmadı. Çünki bu diyarın hər qarışı; çəməni, daşı, qayası, ovalıqları bizim izlərimizdən xəbər verirdi. Alim A.Bakıxanov tayfa və yer adlarını bu cür izah edirdi: "Nəinki əsrlər, hətta min illər belə ölkənin çox yerlərinin və tayfalarının adlarını məhv edə bilməmişdir. Əgər o yerin dağını, daşını, qəbrini tədqiq edirsənsə, o xalqın mənşəyini bilmiş olursan".

Bir çox tarixi mənbələr sübut edir ki, türklərin iziylə bu qədər zəngin olan bu yerləri, bu torpaqları erməniləşdirməyə çalışmaq uğursuz cəhddən və saxtakarlıqdan başqa bir şey deyildi. İşğalda olan torpaq da geri qayıtmağa çalışırdı. Vətən müharibəsi zamanı erməni əsgəri demişdi ki, torpaq da sanki onlara, Azərbaycan əsgərinə kömək edirdi.

Nə az, nə çox, cəmi 44 günə Azərbaycan Ordusu 30 illik həsrəti sonlandırdı. Bir vaxtlar ermənilərin içki məclisi qurduğu Cıdır düzünün könlünü indi yallı sədaları oxşayır. Səslənən Bayatı-Şiraz Qarabağ torpaqlarının yaralarına məlhəmdir.

**Hüsniyyə İDRİSOVA**

## Medallı igidlərimiz

# “Hamımız Vətən üçün əsgərik”

*Şəhid, şəhidlik kəlmələrini uşaqlığından eşidənlər, mahiyyətini hələ əhatəli dərk etmədikləri bu məfhumlar onların peşə seçimində də təsir göstərir. "Şəhidlik nədir?" sualını heç kimdən soruşmadan öyrənir ki, şəhidlik ömrünü Vətən üçün yaşayanların Vətən sevgisinin müqəddəslik mərhələsidir, bu ucalıq ömür payını Vətənə verənlərə qoşa qollar açır. Emil Nurullayev bunları orta məktəbdə oxuyanda bilirdi...*



Emil 1996-cı ildə Qax rayonunda anadan olub. Məktəbdə müəllimlərindən, ailədə atasından eşitdikləri onun düşüncələrini tərpədib. Abbas Səhhətin "Vətən" şeirini öyrənəndən sonra müəllimindən bəzi sözlərin izahını soruşub. O da əmin olub ki, "Vətəni sevməyən insan olmaz..."...

2014-cü ildə şəhid Namiq Abdullayev adına orta məktəbi bitirir. Yoldaşları ondan hansı peşəni seçdiyini, harada oxumaq arzusunda olduğunu soruşublar. Onda Emil bir anlığa göy üzünə baxıb və qətiyyətlə "Hərbçi olacam, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyacam..." deyib. Sinif rəhbərinin əli ahəstəcə qətiyyətli şagirdinin çiyninə enib. "Uğurlar arzulayıram, oğlum. Gələcəkdə mən də qürurlanacam ki, sənin kimi bacarıqlı bir zabitin müəllimi olmuşam...", - deyib. Emil bu kəlmələri məktəb adından səslənən uğurlama bilib...

Emil Nurullayev H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. 2014-cü ilin 15 sentyabrı onun da yaddaşında bir amalın gerçəkləşəcəyinin inamın davamı oldu. Emil arzusunun gerçəkləşəcəyi günü yaxşı oxumaqla, müəllimlərinin, zabitlərin tələb və göstərişlərini məsuliyyətlə yerinə yetirməklə yaxınlaşdırmağa qərarlı idi; peşə seçimində qərarlılıq onun təhsilində qərarlılığın başlanğıcı olmuşdu...

Oxumaq və dərk etmək, qavramaq terminləri fərqli terminlərdir. Emil də oxuduqlarını dərk etməyə çalışırdı, bilmədiklərini, bilmək istədiklərini müəllimlərindən soruşurdu. Orta məktəbdə oxuyanda müəllimi deyibdi: "Bilməmək eyib deyil, bilməyib soruşmamaq eyibdir". Bu məsləhəti unutmayıb, heç zaman unutmayacaqdı.

Emil Nurullayev dedi ki, andiçmə mərasimini heç zaman unutmayacaq. "Həmin gün özüm-özümə minnətdarlıq elədim - hərbçi peşəsini seçməmdə qərarlı olduğuma görə.

Onda gənc leytenantlar bir-birini o qədər səmimi, o qədər duyğusallıqla təbrik edirdilər ki! 2018-ci il ömrümüzə belə yazıldı...

Zabit kimi hərbi xidmətə başladı.

Nümunəvi kursant oldu, nümunəvi zabit olmaq üçün bütün əmr və göstərişləri vaxtında və məsuliyyətlə yerinə yetirirdi. Bu xarakteri tabeliyində xidmət edən əsgərlərə də aşılayırdı. "Hərbi xidmət nizam-intizamdan başlayır. Nizam-intizam, Hərbi anda sədaqət, Hərbi Nizamnamələrə ciddi əməl etmək - bunlar hərbi xidmətin nümunəvilik düsturudur. Belə əsgər olacağınıza inanıram. Belə əsgər həm də yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olur...".

Asudə vaxtlarda əsgərləri ilə söhbətlər aparardı. Vətəndən, torpaqlarımızın işğaldan azad edilməsindən danışardı. Bu söhbətlər əsgərlərin Ali Baş Komandanın döyüş əmrinə hazırlığının bir hissəsi olurdu...

Vətən müharibəsi başladı. Baş leytenant Emil Nurullayevin xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olundu. Komandiri olduğu taqım Suqovuşan, Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak etdi. "Əsgər Aqşin Zeynalov, Xaliq Abdullayev, Səxavət Musayev, Vüqar Kərimov və başqaları rəşadətlə döyüşdülər...", - komandir əsgərlərinin döyüşdə iştirakını qürurla xatırlayır...

"Hamımız Vətən üçün əsgərik", - baş leytenant Emil Nurullayev belə dedi...

Baş leytenant Emil Nurullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Şəhriyar Məmmədyarov “Titled Tuesday Blitz” turnirinin növbəti mərhələsinin qalibi olub



Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov "Titled Tuesday Blitz" turnirinin növbəti mərhələsinin qalibi olub.

11 turdan 10 xal toplayan şahmatçımız bütün rəqiblərini geridə qoyub. Digər şahmatçılarımızdan Loğman Quliyev 7,5, Azər Mirzəyev 6,5 xal toplayıblar.

İsveçrə sistemi üzrə keçirilən yarışda 500-ə yaxın şahmatçı iştirak edib.

## Para-pauerliftinqçimiz Məhərrəm Qasımov Avropa çempionatında bürünc medal qazanıb



Gürcüstanın Bakuriani şəhərində Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) təşkilatçılığı ilə pauerliftinq üzrə Avropa və dünya çempionatları təşkil olunub.

Azərbaycan Milli Paralimpiya Komitəsi xəbər verir ki, təmsilçimiz Məhərrəm Qasımov Avropa çempionatında bürünc medal qazanıb.

Qeyd edək ki, görmə məhdudiyyətli idmançılar arasında təşkil olunan yarışda Azərbaycan ilk dəfə iştirak edib.

## Azərbaycan idmançısı qılıncoynatma ümumrusiya yarışında ikinci yeri tutub



Moskva ətrafındakı Novoqorsk şəhərində qılıncoynatma idmanının sablya növü üzrə ümumrusiya yarışı keçirilib.

2021-2022-ci il mövsümünün açılışı hesab edilən yarışda Azərbaycan yığmasının üzvü Anna Başta da iştirak edib. Təmsilçimiz turnirdə uğurla çıxış edərək ikinci yeri tutub. Yalnız moskvalı Svetlana Şevelevadan geri qalan A.Başta Moskva təmsilçiləri Vlada Plexabova və Yevgeniya Podpaskovanı qabaqlayaraq gümüş medala sahib olub.

## AFC ASED-in döyüşçüsü Səbuhi Quliyev 5 illik fasilədən sonra ilk döyüşünü keçirib



AFC ASED-in (ASED Fighting Championsip) döyüşçüsü Səbuhi Quliyev 5 illik fasilədən sonra ilk döyüşünü keçirib.

Rusiyanın Soçi şəhərində "Motiv Varriors" təşkilatının keçirdiyi görüşdə təmsilçimiz rusiyalı Axmed Balkizov ilə qarşılaşıb.

Döyüş xal hesabı ilə rəqibin üstünlüyü ilə bitsə də, idmançımız yeni bir nəfəs ilə öz geri dönüşünü edib.

Məşqlərini daha da artıran S.Quliyev yanvarda növbəti döyüşünə çıxacaq. Təmsilçimiz Tbilisidə GFC liqasında titul döyüşünü keçirəcək. Rəqibi yerli idmançı Otarı Tanzilov olacaq. O.Tanzilov öz titulunu idmançımız ilə döyüşdə qorumağa çalışacaq.

Qeyd edək ki, S.Quliyev MMA üzrə dünya və dəfələrlə ölkə çempionatının qalibi olub. Təmsilçimizin peşəkar karyerasında 12 qələbə və 5 məğlubiyyəti var.

**AZƏRTAC-ın materialları əsasında**

## Hərbi texnikalar, silahlar

# “Sungur” zenit-raket sistemi

Türkiyənin hava hücumundan müdafiə sisteminin "Sungur" daşınan zenit-raket sistemini Roketsan şirkəti hazırlayıb. Müasir sistem "Stinger" zenit-raket kompleksini əvəz edəcək. "Sungur" zenit-raket kompleksinin maksimal uzaqlıqda və hündürlükdə hərəkət edən hədəflərə sınaq atışları uğurla nəticələnib. Bu sistemdən hərbi dəniz donanmasında da istifadə ediləcək. Raketlər mobil platformadan buraxılacaq.



Müasir kompleks gecə və gündüz vaxtlarında hədəfləri izləmə və aşkaretmə imkanına malikdir. "Sungur" kompleksinin əsasını Türkiyə istehsalı olan "PorSav" daşınan zenit-raket kompleksi təşkil edir. Onun hazırlanmasında Roketsan və Aselsan şirkətləri iştirak ediblər.

"Sungur" hava hücumundan müdafiə sistemi yüksək manevrliyə və dəqiqliyə malikdir. Raketinin döyüş başlığının çəkisi 3 kiloqrama qədərdir. Nişangah kompleksi gecə və gündüz vaxtlarında mövqedən çox uzaqda yerləşən hədəfləri müşahidə etmək, tanımaq və müşayiət etmək imkanına malikdir. Ətalət stabilizatoru və elektrik ötürücüsü ilə təchiz edilmiş qülləsi 360 dərəcə dönə bilir. Qüllədə iki ədəd buraxıcı "PorSav" raket qurğusu quraşdırılıb və onların hər biri qısa vaxt ərzində ardıcıl olaraq tuşlanan idarə olunan raketləri buraxa bilir. Raket 4 kilometrə qədər yüksəklikdə, 8 kilometrə qədər uzaqlıqda olan hədəfləri məhv etmə qabiliyyətinə malikdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Teymurov Tural Temur oğluna məxsus AD № 0040807 nömrəli şəxsi vəsiqə və əsgər Gözəlov Vaqif Nail oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
baş leytenant Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 691
Nüsxə 4044